# “Hər sərxoşedici alkaqollu içkidir və hər bir sərxoşedici haramdır və kim dünyada sərxoşedici içkiyə aludə olub onu daima içərsə və tövbə etmədən ölərsə, onu axirətdə içməyəcəkdir”

İbn Ömərdən (Allah hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Hər sərxoşedici alkaqollu içkidir və hər bir sərxoşedici haramdır və kim dünyada sərxoşedici içkiyə aludə olub onu daima içərsə və tövbə etmədən ölərsə, onu axirətdə içməyəcəkdir”.
[Səhih]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, ağlı bulandıran və onu aparan hər bir şey- istər içmək, yemək, nəfəs almaq, istərsə də başqa şəkildə olsun- sərxoşedici içki (hökmündədir) və Uca Allah hər sərxoş edən və ağlı aparan şeyi -istər az, istərsə də çox olsun- haram və qadağan etmişdir. Bu sərxoşedicilərin hər hansı bir növündən içən, buna davam edən və ölənə qədər bundan tövbə etməyən hər kəs; onu cənnətdə içməkdən məhrum edilməklə Allahın cəzasına layiqdir.

https://sunnah.global/hadeeth/az/show/58259